## *Içindəkilər*

**1 Güney Azərbaycan Milli Birlik Şurasının Əsasnaməsi ........ 3**
1.1 Giriş ........ 3
1.2 Ümumi Müddəalar ........ 5
1.2.1 Güney Azərbaycan Milli Birlik Şurasının qısa adı ........ 5
1.2.2 Müştərək Hədəflər ........ 5
1.2.3 Fəaliyyət platforması ........ 6
1.2.4 Milli Şuranın Fəaliyyət mexanizmi ........ 7
1.2.5 Beynəlxalq hüquq anlayışı ........ 7
1.3 Birlikdə fəaliyyət modeli ........ 8
1.3.1 "Milli Şuraya" üzvlük şərtləri ........ 8
1.4 Milli Şuranın rəmzi ( Emblem) ........ 8
1.5 Əlavələr: ........ 10
1.5.1 Əlavə - 1 ........ 10
1.5.2 Əlavə – 2 ........ 11
**2 Güney Azərbaycan Milli birlik Şurasının Nizamnaməsi ........ 13**
2.1 Qurultay ........ 13
2.1.1 Qurultayın açılışı və görəvləri ........ 14
2.1.2 Qurultayın səlahiyyətinə aşağıdakılar daxildir: ........ 14
2.2 Qurultayda seçilənlərin görəv və səlahiyyətləri ........ 15
2.2.1 Başqanlıq Şurası ........ 15
2.2.2 İcra orqanı ........ 15
2.3 Milli şuranın Güney Azərbaycan inzibati ərazisində təşkilat sistemi ........ 16
2.3.1 Əyalətlər ........ 16
2.3.2 Vilayətlər ........ 16
2.3.3 Bölgələr ........ 16
2.3.4 Bucaqlar ........ 16
2.4 Milli Şuranın təşkilat sistemindəki organlarının vəzifələri ........ 17
2.5 Milli Şurada üzvlük ........ 17
2.5.1 Üzvlük mexanizmi ........ 18
2.5.2 Milli Şura üzvünün hüquqları ........ 18
2.5.3 Milli Şura üzvünün vəzifələri ........ 18
2.5.4 Milli Şura üzvluyundən xaric olunma qaydaları ........ 18
2.6 Milli Şura təşkilatında işçilərin fəaliyyət şəraiti ........ 19
2.7 Milli Şura təşkilatında gənclərin fəaliyyət şəraiti ........ 19
2.8 Milli Şura təşkilatında qadınların iş şəraiti ........ 19
2.9 Milli Şuranın əmlakı və maliyyə vəsaiti ........ 20
2.9.1 Milli Şuranın əlamətləri ........ 20
2.9.2 Milli Şuranın əmlakı ........ 20
2.9.3 Milli Şuranın gəlir qaynaqları ........ 20
2.9.4 Milli Şuranın xərc yerləri ........ 20
2.9.5 Milli Şuranın hesbatı ........ 20

Milli Şura

# 1 Güney Azərbaycan Milli Birlik Şurasının Əsasnaməsi

***- LAYİHƏ-***

## 1.1 Giriş

***Əsas məsələmiz "Güney Azərbaycanda milli müqəddəratın təyini"dir.***

Xəzər dənizinin batı bölgəsində Kür, Araz, Qızılüzen və Qaraçay ırmaqlarının axdığı geniş ərazidə min illərdən bəri böyük və möhtəşəm bir uyqarlıq yaşamaqdadır. Bu qədim və zəngin mədəniyyət 10000 il öncədən Qobustan qayalarına öz qalarğı izini buraxıb, zaman-zaman inkişaf edib daima gəlişmişdir. Bu parlaq mədəniyyət çeşidli sülalaələrin hakimiyyəti altında formalaşsa da, yalnız bir adla tanına bilər: O ad kəsinliklə Azərbaycan Türk mədəniyyətidir. Azərbaycan Türk mədəniyyəti tarixin ən əski çağlarından başlamış və bütün dəhşətli hadisələrdən və vəhşətli faciələrdən öz milli təməllərinə dayanaraq sağ-salamat geçibdir və tarix boyu bütün yad hücumları dizə çökdürübdür. Beləliklə, bu gün Azərbaycan yurdu və türk milləti dünyanın ən tanınmış yurdlarından və millətlərindən biri sayıla bilər.

Azərbaycanın tarixi torpaqları 500 min kvadrat km vüsəti və yaxlaşıq 50 milyona yaxın əhalisi ilə Asyanın qərbində müxtəlif ölkələr arasında bölünmüşdür. Ancaq Avropa qitəsində yerləşən 80 min kvadrat kilometrlik ərazidə bugün Azərbaycan Respublikası adı altında müstəqil bir dövlət qurulmuşdur. Mötəbər tarixi sənədlər və faktlar əsasında ("Tarixi-Təbəri" – "Yəqubi" və sairə) Azərbaycanın hüdudları Dağıstandan-Dağıstana tərsim edilmişdir. Bütün bu ərazidə yəni Ərak, Həmədan və Reydən başlayaraq Qafqaz dağlarına qədər Azərbaycan türklərinin varlığı və bəzi iki dilli şəhərlər xaricində xalqın Azərbaycan türkcəsində danışmağı özü-özlüyündə bir fakt kimi yaşamaqdadır. Bu həqiqət bir halda özünü göstərir ki, Məmalik-i-Məhrusə adlanan o ölkədə hakimiyyətdə olan Qacar Türk sülaləsindən sonra iş başına gətirilən Pəhləvi hakimiyyətindən başlayaraq bu günə qədər milli varlığımız qəddarcasına talanmış, assimilasiyaya məruz qalmışdır.

Azərbaycan parçalanmış bir vahiddir və həmin parçalanmağın nəticəsində son iki yüz ildə sivil millətimiz böyük problemlərlə qarşılaşıb, əzab-əziyyətlər çəkib assimilasiyaya məruz qalıb, milli varlığı inkar edilib. Ancaq özünün güclü dili, mədəniyyəti, musiqisi, ədəbiyyatı, ümumiyyətlə, yüksək kültürü bu millətin yox edilməsinə mane olubdur. Azərbaycan türkləri bu bölgədə 7000 illik tarixləri boyu dünya sivilizasiyasına böyük xidmətlər edib, dünya mədəniyyətinə böyük töhfələr bəxş edib və milli-insani dəyərləri qorumaq üçün böyük qəhrəmanlar yetişdirib. Ancaq şovinist təfəkkürlərin hücumu nəticəsində ayaqda dura bilməyib, zaman-zaman hətta kütləvi sürgünlərə məruz qalıb və tamamən yox olma təhlükəsi ilə üzləşib. Bütün bu bədbəxtliklərin əsas səbəbi bölünüb-parçalanmağımız olduğuna görə dünyanın bugünkü əlverişli şəraitində azərbaycanlılar, xüsusən, məzlumiyyət sacında qıvrıla-qıvrıla qovrulan aydınlar birləşmək və bütövləşmək uğrunda müxtəlif fikir və təkliflər irəli sürürlər. Əsas milli xüsusiyyətlərimizdən olan

Milli Şura

insansevərlik-sülhsevərlik- hər zaman bütün millətlərə hörmətlə yanaşmaq, beynəlxalq qayda-qanunlara uymaq yolumuzun doğruluğunu göstərməkdədir.

Keçən əsrdə İranda hakim olan farsçılıq siyasəti başqa xalqların əridilməsinə xidmət etmişdir. O ölkədə çoxunluğu təşkil edən azərbaycanlıları tamamilə məhv etmək mümkün olmamış, bu millət zaman-zaman ayaqlanaraq öz milli haqlarının təmininə çalışmışdır. Ancaq mərkəzi hökumətin aldadıcı siyasəti və beynəlxalq şəraitin uyğunsuzluğu səbəbilə milli-insani haqlarının ən ibtidaisini belə əldə edə bilməmişdir. İnanılması çətin olsa da, həqiqət budur ki, 30 milyonluq Cənubi Azərbaycan türklərinin bir sinif belə ana dilində məktəbi yoxdur. Baxmayaraq ki, keçən yüzillikdə bu ölkədə baş verən bütün inqilab və dəyişikliklərdə öndə gedən azərbaycanlılar olmuşdur. Amma Səttarxan, Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvəri hərəkatları və azərbaycanlıların dini rəhbəri olan Ayətullah Şəriətmədari direnişi müxtəlif tarixi səbəblərə görə başarıya ulaşamamışdır. Onun üçündür ki, Azərbaycan milli hərəkatının birləşib güc mərkəzinə dönüşməsi bu gün tarixi zərurət halına gəlmişdir. Azərbaycanlılar öz milli haqlarının təmini üçün təhrif olunmuş tarixlərinin doğrusunu öyrənməli və farsçılıq siyasətindən uzaq, müstəqil bir təfəkkür dairəsində birləşməlidirlər.

Xordad ayının birlik qiyamı göstərdi ki, tarixi ədavətlərə, ağır basqılara və acı xəyanətlərə baxmayaraq, Azərbaycan milləti hələ də bir aslan kimi kükrəməkdədir. Dünyanın gözləri önündə bütün Azərbaycan ayağa qalxıb qiyam etdi və türk milləti əllidən artıq şəhərdə xiyabanlara çıxıb ən uca səslə “haray-haray mən türkəm!”, “Faşizmə ölüm!”, “Azərbaycan bir olsun!”, “Ya Qarabağ, ya ölüm!”, “Ana dilində mədrəsə!” və s. kimi şuarlarını bayraq etdi. Bu milli və anti-aparteid səciyyəli hərəkat aydınca subut etdi ki, fars faşistlərinin 85 illik assimilasiya siyasətləri türk millətinin iradəsi önündə heç bir başarı qazanmayıbdır. Beləliklə, Azərbaycanda milyonlarca türkün qiyamı, minlərcə azərbaycanlı mübarizin həbsə getməsi, yüzlərcə dirənişçinin yaralanması və onlarca cəsarətli gəncin şəhid edilməsi ən qabarıq şəkildə dünyaya bildirdi ki: ”Öldü var, döndü yoxdur- yandı var, söndü yoxdur!”Elmin, tarixin və reallığın tərsinə çıxmaq nadanlıqdır. Dünyanın bugünkü şəraitində yurdumuzun parçalanmış hissələri, ünsür və fərdləri arasında yaranmış isti münasibət, xüsusən Güney Azərbaycanda milli haqlarımızın qazanılması üçün lazım olsa da, kafi deyildir. Mənəvi birliyimizin yaranması gələcəyə ümid gözü ilə baxılmasına imkan yaradır. Ancaq Güney Azərbaycan probleminin həlli biz güneylilərin fəaliyyəti ilə baş tutacağı da danılmazdır. Bizim isə gücümüz birliyimizdədir.

1385-ci ilin xordad ayında ( May 2006) Güney Azərbaycanın milli qiyamı açıqca göstərdi ki, Azərbaycan milli hərəkatının-vahid mübarizənin qarşısında tab gətirəcək bir quvvə yoxdur. Güney Azərbaycanda milli haqların tələbi ilə dinc nümayişə çıxan millətimizin gücündən qorxuya düşən Fars şovinizmi “asdı- kəsdi” siyasəti yürütsə də, nəhayət, bizim qalib gələcəyimiz sübut olunmuşdur. Həmin dirçəliş günlərində onlarla şəhid, yüzlərlə yaralı və minlərlə zindani versək də, millətimizin dirənişi və özəlliklə siyasi zindanilərimizin sinə gərməsi düşməni kırıxdırmışdır. Bu yüksəlişin davamı və əsasən daxildə fəaliyyəti tənzimləmək

yolunda “ Güney Azərbaycan Milli Birlik Şurası” məntiqi olaraq fəaliyyət mexanizmini seçməkdə israrlıdır. Ona görə də beynəlxalq hüquq qaydalarına dayanaraq məntiqi hücumlarımızın artaraq davamı arzu edilməkdədir.
Bütöv Azərbaycanın əhali və ərazisinin 75-80 faizini təşkil edən Cənubi azərbaycanlılar hiyləgər farsçılıq siyasəti ilə qarşı-qarşıya olduqları üçün hər şeyi yüz ölçüb- bir biçməlidir. Belə bir şəraitdə Azərbaycan Milli Hərəkatının fəalları qəddar şovinist qüvvələrin oyunlarının qarşısını almaq üçün daha böyük siyasət həyata keçirməlidirlər. Bu siyasəti yürütmək üçün azərbaycançılıq məfkurəsinə daxil olan bütün qüvvələrin bəlli nöqtəyə qədər müştərək platforma ətrafında birləşməsi ilk addımdır.

Başqa zaviyədən baxanda dünyada demokrası mücadiləsi aparan bütün qüvvələr bilirlər ki, İranda demokrasinin ən böyük əngəli fars şovinizmidir. Onun qarşısında dura-biləcək tənha güc isə Azərbaycan Milli Hərəkatıdır. Milliyyətindən asılı olmayaraq bütün demokratların bizimlə birləşərək güc mərkəzinə dönüşməmizə müsbət dəyər verməsi gözləniləndir.

Bütün bunlar göstərir ki, bir tərəfdən dünya dövlət və millətləri ilə diplomatik münasibətlər qurmaq, başqa bir tərəfdən BMT-nin 1960-cı il, 1541 saylı “milli müqəddəratı təyin etmə hüququ” bəyannaməsinə müraciət etmək bu işin məntiqi həllinə yol açacaqdır. Bu bəyannamənin arxasınca 1966-cı ildə BMT-nin üzvü olan dövlətlər, o cümlədən “tərkibində Cənubi Azərbaycanın da yerləşdiyi” İran dövləti ilə imzaladığı 2200A (xxı) saylı iqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktın müddəalarının xatırlanması zəruri hesab edilir. Əlavə 1 də (Sancaq 1) qeyd edilən bu müqavilənin müddəaları BMT-nin insan haqları komissarlığının Bakı şöbəsinin AZƏ/95AH/12 nəşriyyəsindən eynən nəql edilmişdir.

## 1.2 Ümumi Müddəalar

### 1.2.1 Güney Azərbaycan Milli Birlik Şurasının qısa adı

Bu təşkilatın qısaldılmış adı “Milli Şura” şəklindədir. Bundan sonra bu əsasnamədə və ya təşkilatla bağlı başqa sənədlərdə bu ad keçərlidir.

### 1.2.2 Müştərək Hədəflər

#### 1.2.2.1 Ümumi baxış və prinsiplər

Güney Azərbaycan Milli Birlik Şurasının qarşısına qoyduğu hədəflərdə, xüsusən Güney azərbaycanlıların əfkari-ümumisi göz önünə alınmışdır.
Bununla belə zərurətlər əsasında aşağıdakı prinsipial anlayışlar da düşünülür:

- Hədəflər beynəlxalq hüquq çərçivəsində qayda - qanunlara uyğun olmalıdır.
- Cənubi Azərbaycanda açıq şəkildə təşkilat və təbliğat işləri aparıla bilməsi nəzərə alınmalıdır.
- Bütün qrupların istək və hədəflərinə çatmaq üçün bəlli bir nöqtəyə qədər müştərək taktik təşkil etməlidir.

Milli Şura

- Reallıqlara, dünya əfkari-ümumisinə, dünyada və bölgədəki hadisələrə uyğunluq qabiliyyətində olmalıdır.

#### 1.2.2.2 Hədəflər

Əsas məsələ Cənubi Azərbaycanda milli müqəddəratımızı təyin etməkdir.

Hər fərd və təşkilat müstəqil olaraq öz ideoloji məqsədinə çatmaq uğrunda fəaliyyətlə bərabər aşağıdakı hədəflərin Cənubi Azərbaycanda yerinə yetirilməsi üçün “Milli Şura”da fəaliyyət göstərməlidir. Bu hədəflərə nail olduqdan sonra istəyənlər ondan ayrıla bilərlər və ya bu əsasnaməni dəyişdirə bilərlər. Bunun üçün nizamnamədə göstərilən üsul uyğulanar.

BMT-nin təriflərinə əsasən, Cənubi azərbaycanlılar bir millət kimi qəbul edilir və öz müqəddəratını təyin etmə hüququ var. Bu qavramları anlamaq üçün Əlavə 2-də BMT-nin bəyannamələrinin Kembric (Cambridge) üniversitəsinin üstadı Pröf.Dr. Tom Haddeji tərəfindən hazırlanmış raportunun xülasəsi təqdim edilmişdir. Göründüyü kimi, hər bir millət öz müqəddəratını təyin edərkən müstəqil (bağımsız) başqa bir dövlətlə bərabər hüquqlu yaşamaq (federasiya) və ya hər hansı bir ölkə ilə birgə və vahid dövlət tərkibində idarə oluna bilər. Ancaq Cənubi Azərbaycandakı assimilasiya siyasəti nəticəsində ortaya çıxmış acınacaqlı vəziyyət millətin həqiqi milli varlığının ona tanıtdırılması üçün hazırlıq mərhələsi lazımdır.

### 1.2.3 Fəaliyyət platforması

Bu məramnamədəki hədəflərə çatmaq üçün uzun müddətdən bəri aparılan fəaliyyətlər nəticəsində nəhayət 2006-cı il Jun ayının 4 və 5-ində Almaniyanın Köln şəhərində toplaşan qrup aşağıdakı platformanı (Prinsiplər) qəbul etmişdir. Bu təşkilatın fəaliyyəti ancaq bu platforma ətrafında birləşməklə yerinə yetirilməlidir. Bir müraciət şəklində təyid olunmuş platforma aşağıda eynən təqdim edilir.

## *Platforma ( Prinsiplər)*

## *Qəhrəman millətimizə müraciət*

Azərbaycan milli hərəkatının birləşib güc mərkəzinə çevrilməsi günün ən vacib məsələlərindən biridir. Bu məqsədi həyata keçirmək üçün mövcud təşkilat və şəxsiyyətlərin öz strategiyalarına - qurumlarına sadiq qalaraq bir araya gəlib, vahid milli – siyasi təşkilatın daxilində əməkdaşlıq etmələri tarixi bir zərurətdir. Azərbaycanımızın içində və dışında demokratik və sistematik fəaliyyətin aparılması lazımdır. Bu əməkdaşlıq bugünkü şərtlər əsasında beynəlxalq hüquq qaydalarına arxalanmalı və tanınmış şura üsulları ilə idarə olunmalıdır.
Eləcə də beynəlxalq hüquq çərçivəsində və Birləşmiş Millətlər Təşkilatının 1960-cı ildə qəbul etdiyi 1541 – saylı bəyannaməsi əsasına dayanması ən uyğun metod olaraq qəbul edilməkdədir. Bu bəyannamə əsasında öz “milli müqəddəratını” təyin etmək, Azərbaycan türk millətinin son hədəfinə yetişməsi üçün bir yoldur.

MilliŞura

Bu əməkdaşlıqda çeşidli qurum və fikir sahibləri öz görüşlərindən ayrılmadan aşağıdakı prinsiplər əsasında Azərbaycanımızın qısa və uzun vədəli çıxarları üçün birlikdə fəaliyyət göstərməyi qərara aldılar.
Güney Azərbaycan öz milli müqəddəratını təyin etdikdən sonra, Güney Azərbaycanın tarixi ərazilərinin xaricində yaşayan soydaşlarımızın aşağıda qeyd olunan haqlara sahib olmaları gərəkir:
Bu soydaşlarımız ilk məktəbdən biliyurda qədər ana dilində təhsil almalıdırlar.
Yaşadıqları bölgələrdə ana dilində radio-televiziyaları, mətbuatı və siyasi firqələri (parti - hizb) olmalıdır.

Güney Azərbaycanda təxrib olunmuş iqtisadiyyatımız, yüksək iqtisadi potensialımızdan yararlanaraq inkişaf etdirilməlidir. Bu haqda xüsusi sərmayə və malikiyyətin qorunması şərti ilə ictimai ədalətin təmininə böyük əhəmiyyət verilməlidir. Bu isə azad bazar sisteminə dayanır.

Güney Azərbaycanda Birləşmiş Millətlər Təşkilatının insan haqları bəyannaməsində qeyd edilən azınlıqların haqları, qadın və uşaq haqları, işçi haqları, azad sendika və siyasi partiyaların yaranması haqları öz həllini tapmalıdır.

Günümüzdə ana vətənimiz olan Azərbaycanın azadlığı yolunda aparılan mübarizədə həbs olunan və dustaqxanalarda işgəncə altında olan bacı-qardaşlarımızın azadlığı yolunda dünya platformasında, beynəlxalq təşkilatlar səviyyəsində lazımi şəkildə fəaliyyət göstərilməlidir.

Güney Azərbaycan Milli Birlik Şurası
Almaniya -Köln 04. 06 . 2006.

### 1.2.4 Milli Şuranın Fəaliyyət mexanizmi

Milli Şuranın idarə olunması və fəaliyyət mexanizmi “ŞURA” təfəkkürünə dayanaraq həyata geçəcəkdir. Bunun üçün iki ildən bir geçiriləcək qurultaylarda nizamnaməyə uygun olaraq aşağıdakı organlar seçiləcəkdir:

“Başqanlıq Şurasi”- 7 nəfər.
“İcra Komitələri “- 10 nəfər.

Bu idarə sisteminin işləməsi və organlar arasındakı ilişgilər Nizamnamə bölməsində geniş olaraq təşrih edilmişdir.
Bunu da əlavə etmək lazimdır ki, milli şuranın əsas fəaliyyəti içəriyə yönəlik olacağına görə Güney Azərbaycanın tarixi torpaqlarında bir “ali məclisin də seçilməsi nəzərdə tutulmuşdur. İndiki şəraitdə bu tam açıq olmasa da, uygun durum yaranan kimi bu məclis seçilərək açıq fəaliyyətə başlamalıdır.

### 1.2.5 Beynəlxalq hüquq anlayışı

MilliŞura

"Milli Şura" bütün beynalxalq hüqüq norma və qaydalarına uyar və hərəkətinin legitimliyini qorur. İnsanlara və millətlərə azadlıq və demokrasi mücadiləsi verən bütün beynalxalq təşkilatlar ilə iş birliyi edər və onların bəyaniyyələrini çalışma çərçivəsində yerləşdirər.
Özəlliklə "Birləşmiş Millətlər Təşkilatının" insan haqlari bəyannaməsində yer alan insan haqları və demokrasi düşüncəsinə tam hörmətlə yanaşır və onların yerinə yetirilməsində əlindən gələni edər. Bu bəyannamə mətnində yerləşən qadın, uşaq, işçi və başqa təbəqələrin haqq və hüququnu qorumaqda titizliklə durar və icra edər.

## 1.3 Birlikdə fəaliyyət modeli

Birləşmələr ideoloji, taktiki, müştərək hədəf, müştərək düşmən və s. əsasında baş verə bilər.
Milli hərəkatın mahiyyətində olduğu kimi, millətin dərdini heç bir təbəqənin üstün mənafeyini nəzərə almadan düşünmək, təşkilatlanmanın əsas məqsədi olmalıdır.
Azərbaycan Milli hərəkatının vahid çatı altında birləşməsindən başqa yolu yoxdur, olsa da həyata keçirməsi çətindir.
Onun üçündür ki, bu təşkilata fərdlər və təşkilatlar özünə xas şəkildə üzv olub, fəaliyyət göstərə bilərlər. Bu mexanizm bu əsasnamənin ikinci bölümü olan nizamnamədə geniş şəkildə izah ediləcəkdir. Ancaq burada qısa şəkildə üzvlük şərtləri və fəaliyyət mexanizminin açıqlanması faydalı görünməkdədir.

### 1.3.1 "Milli Şuraya" üzvlük şərtləri

Azərbaycan probleminin həllini hər siyasi təfəkkürdən öndə görüb, öncə ona çalışanlar və bu əsasnaməni qəbul etmiş bütün təşkilat və şəxslər din, ideoloji və dünyagörüşündən asılı olmayaraq bu quruma üzv ola bilərlər. Əsas məqsəd İranda aparılan farsçılıq şovinist siyasətindən qopub azərbaycanda Türkçülük siyasətinə yapışmaqdır.
Bu barədə nizamnamə bölümündə geniş məlumat verimişdir.

#### 1.3.1.1 Milli Şura üzvlərinin fəaliyyət mexanizmi

Bu mexanizm nizamnamədəki əsaslara dayanaraq iki üsulla həyata keçirilir:

- Fərdi üzvlər

Bu üzvlər direkt olaraq Milli Şuranın nizamnamə və proqramı əsasında fəaliyyət göstərirlər. Təşkilatın gəlişməsi uğrunda doğrudan-doğruya iştirak edər və onun hədəfləri yolunda təşkilati, təbliğati və başqa fəaliyyətlərdə bulunarlar.

- Təşkilatlar

Milli Şuraya üzv olan təşkilatlar öz müstəqilliklərini qorumaqla birgə, bu qurumun ümumi hədəfləri doğrultusunda fəaliyyət göstərirlər. Milli Şurada göstərilən fəaliyyətlər heç bir təşkilatın məramnaməsinə qarşı çıxmaz, onunla uyğunlaşar. Bu təşkilatların Milli Şuradakı fəallarının sayı o təşkilatın kəmiyyətindən asılıdır.

## 1.4 Milli Şuranın rəmzi ( Emblem)

Milli Şuranın nişanı keçici baş komitənin 2006-12-10 tarixindəki oturumunda müzakirə edilərək aşağıdakı şəkildə geçəri qəbul edilmişdir.

Milli Şura

GÜNEY AZERBAYCAN MİLLİ BİRLİK ŞURASI

## 1.5 Əlavələr:

### 1.5.1 Əlavə - 1

İQTİSADİ, SOSİAL VƏ MƏDƏNİ HÜQUQLAR HAQQINDA BEYNƏLXALQ PAKTIN ƏSAS MÜDDƏALARI

#### *Maddə 1: Öz müqəddəratını təyin etmə*

Bütün xalqlar öz müqəddəratını təyin etmə hüququna malikdir. Bu hüquq əsasında onlar azad şəkildə öz siyasi statuslarını müəyyənləşdirir, iqtisadi, sosial və mədəni inkişaflarını təmin edirlər.

Bütün xalqlar öz məqsədlərinə nail olmaq üçün qarşılıqlı mənfəət prinsipinə əsaslanan beynəlxalq iqtisadi əməkdaşlıqdan və beynəlxalq hüquqdan irəli gələn hər hansı öhdəliklərə zərər vurmadan öz təbii sərvət və ehtiyatlarından azad şəkildə istifadə etmək hüququna malikdirlər. Heç bir xalq heç bir halda ona məxsus yaşayış vasitələrindən məhrum edilə bilməz.
Hazırkı paktda iştirak edən bütün dövlətlər, o cümlədən özünüidarə olunmayan və qəyyumluq altında olan ərazilərin idarə olunmasına görə məsuliyyət daşıyan dövlətlər Birləşmiş Millətlər Təşkilati Nizamnaməsinin müddəalarına uyğun olaraq öz müqəddəratını təyin etmə hüququnun həyata keçirilməsinə yardım etməli və bu hüquqa hörmət etməlidir.
Paktın 1-ci maddəsinin ifadəsi Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 1-ci maddəsinin ifadəsi ilə bütövlükdə üst-üstə düşür. Hər iki pakt üçün ümumi olan 1-ci maddədə ifadə olunan öz müqəddəratını təyin etmə prinsipləri xüsusi əhəmiyyət kəsb edir, çünki həmin hüququn həyata keçirilməsi şəxslərin insan hüquqlarına səmərəli hörmət və riayət etmənin əsas ilkin şərti olaraq insan hüquqlarının müdafiəsinin təmin edilməsi və müdafiə tədbirlərin gücləndirilməsi işində mərkəzi yer tütür.
1945-ci ildə Birləşmiş Millətlər Təşkilatı yaradıldığı andan başlayaraq, xüsusilə müstəqillik, qarışımama, demokratiya kimi mövzuların müzakirəsində, beynəlxalq ictimaiyyət, beynəlxalq hüquq sistemində mərkəzi yer tutan öz müqəddəratını təyin etmə hüququna ilk növbədə diqqət yetirmişdir. Həm daxili, həm də xarici istiqaməti olan həmin hüquq, keçmiş müstəmləkələrdən və işğal edilmiş ölkələrdən başqa, bu və digər dövlətlərdə bəzi qrupların daha çox onun iddiasında olması üzündən son illər müəyyən mübahisələrə səbəb olur.
Xalqların iqtisadi, sosial və mədəni inkişaflarını azad şəkildə təmin hüququ, Paktda müəyyən edilmiş hüquqlar kontekstində iqtisadi, sosyal və mədəni fəaliyyəti həyata keçirmək azadlığını ehtiva edir.

#### *Maddə 2: İştirakçı dövlətlərin öhdəlikləri*

Hazırkı Paktda iştirak edən hər bir dövlət fərdi şəkildə və beynəlxalq, o cümlədən iqtisadi və texniki sahələrdə yardım və əməkdaşlıq qaydasında bütün lazımi

vasitələr, o cümlədən, xüsusilə qanunvericilik tədbirlərin görülməsi ilə hazırkı Paktda nəzərdə tutulan hüquqların tədriclə tam şəkildə həyata keçirilməsini təmin etmək üçün mövcud ehtiyatlarını maksimum səviyyəsində tədbirlərin həyata keçirilməsi öhdəliyini üzərinə götürür.
Hazırkı Paktda iştirak edən dövlətlər, hazırkı Paktda bəyan edilmiş hüquqların irqi, dərinin rəngi, dil, din, siyasi, və digər əqidə, milli və sosial mənşə, əmlak vəziyyəti, doğum və s. əlamətlər əsasında ayrı-seçkiliyə yol verilmədən həyata keçirilməsini öhdələrinə götürürlər.
İnkişaf etməkdə olan ölkələr insan hüquqlarını və milli iqtisadiyyatlarının imkanlarını qiymətləndirərək, onların ölkələrinin vətəndaşları olmayan şəxslərə hazırkı Paktda nəzərdə tutulan iqtisadi hüquqları hansı dərəcədə təmin edəcəklərini müəyyənləşdirə bilər.

### 1.5.2 Əlavə – 2

## *MİLLƏT VƏ MİLLİ MÜQƏDDƏRAT MƏFHUMU*

Millət və milli müqəddəratı təyin etmə məfhumunu bəlirtmək ücün Birləşmiş Millətlər Təşkilatının müxtəlif komisionları və bəlgələri əsasındakı tərifləri bir qayda olaraq qəbul etmək gərəkir. Kembric Universitəsinin ustadı Prof.Dr. Tom Haddəji tərəfindən hazırlanmış bu raporun xülasəsi aşağıda təqdim edilir.

Birləşmiş Millətlər özəl raportorlarının öz müqəddəratını təyin etmə haqqı: Birləşmiş Millətlərin bəlgələri təməlində tarixi və çağdaş gəlişmələr (Critescu raportu) [BM bəlgələri Ə/CN. 4/Sub. 2/404/rev. 1(new York, 1981)] və dilsəl, dinsəl və etnik azınlıqlara mənsub insanların haqları(Capototorti raportu)[BM bəlgələri Ə/CN. 4/Sub. 2/384/rev. 1(Nəw York, 1979)] üzərinə raportları bu iki qavrayış arasındakı ilişkilərə dair kimi ip ucu verməkdədir. Bu raportlar, öz müqəddəratını təyin haqqına sahib bir xalq olaraq tanınma iddiasında olan hər hansı bir kütlənin qarşılaması gərəkən qapsamlı ölçü önəriləri ( Millət məfhumu):
özünəməxsus bir dil, din və ya kültür sahibi olmaq,
özəl bir tarix və keçmişə sahib olmaq,
Özünə xas kimliyini qoruma və bağımsızlığını güvəncə altına alma qabiliyyətinə sahib olma,
Özünəməxsus bir torpaq və ərazi bütünlüyünə sahib olmaq.

## *Praktikdə öz müqəddəratını təyin etmə metodu:*

Bütün xalqlar öz müqəddəratını təyin haqqına sahibdir. Onlar, bu haqdan dolayı politik statuslarını azad şəkildə müəyyən edib, ekonomik, ictimai, və kültürəl gəlişmələrini sərbəstcə sürdürərlər. Bu haqqın ölçüsü, bir torpaq müstəqillik statusunu əldə edəndən sonra aşağıdakı seçənəklərdən birinin tərcih edilə biləcəyini ifadə edən, "BM gənəl Qurulu"nun 1960 tarixli 1541 Saylı qərarı ilə da aydınlaşmışdır:
bir əgəmən bağımsız dövlət olaraq ortaya çıxma,
bağımsız bir dövlət olaraq azad şəkildə başqa bir dövlətlə ortaq olmaq (federal - konfederal)
bağımsız bir dövlətlə bütünləşərək bütöv bir ölkə yaratmaq.

Hər nə qədər bu qərar BM yasasının 73 maddəsinə gərəyincə istənən raporlara mövzu olan öz yönətimi olmayan vəsait altındakı torpaqlara özəl bir ətflə alındıysa da, eyni status tərcihinin öz müqəddəratını təyin haqqını istifadə edən bütün xalqlara açıq olmasından çəkinməyə heç bir səbəb mövcud deyildir.

Millişura

# 2 Güney Azərbaycan Milli birlik Şurasının Nizamnaməsi

## 2.1 Qurultay

“Milli Şuranın“ idarə edilməsində bu nizamnamədə qeyd edilən bütün orqanlar ancaq seçki üsulu ilə həyata keçər.
“Milli Şuranın” alı orqanı 2 ildən bir 220 nümayəndənin iştirakı ilə keçiriləcək qurultaydır. İlk qurultay təsis konfransı kimi qəbul edilir. Bu nümayəndələr Güney Azərbaycanın inzibati ərazilərindən və həmçinin xarici ölkələrdə yaşayan Güney azərbaycanlılardan seçilir. Ancaq daxildəki şərait münasib olana qədər, qurultay xaricdə yaşayanlar tərəfindən qurulur. İçəridəki fəalların istəyi üzrə onlar da öz adı və ya taxma ad ilə qurultayda iştirak edə bilərlər.
Qurultay nümayəndələrinin ərazilər üzrə iştirakı
Güney Azərbaycan Əyalətlərindən:

| Əyalət | Say |
|---|---|
| Təbriz | 30 |
| Urmu | 20 |
| Ərdəbil | 20 |
| Zəncan | 18 |
| Ənzəli | 7 |
| Bicar | 6 |
| Qəzvin | 16 |
| Həmədan | 16 |
| Tehran | 20 |
| Ərak | 16 |
| Toplam | 169 |

| Xaricdəki Güneylilərdən | |
|---|---|
| Ölkələr | Say |
| Şumalı Azərbaycan | 10 |
| Türkiyə | 8 |
| Avropa | 15 |
| Amerika | 8 |
| Sairə | 10 |
| Toplam | 51 |
| Tum Toplam | 220 |

***Diqqət:* *Daxildəki uyğun şəraitə qədər bu deleqatlar xaricdən seçilsə də onun paylanması Güney xanlıqlarına uyğun olmağa çalışılmalıdır.***

Milli Şura

### 2.1.1 Qurultayın açılışı və görəvləri

- Qurultayı başqanlıq şurasının təyin etdiyi bir üzvü açar.
- Nümayəndələrinin yarıdan çoxu iştirak edərsə, qurultay baş tutmuş sayılır. Qurultayda qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Zərurət olduqda, sadə səs çoxluğu yerinə qurultayın mühüm hesab etdiyi məsələlərə dair qərarlar, nümayəndələrin üçdə iki səs çoxluğu əsasında qəbul edilə bilər.

### 2.1.2 Qurultayın səlahiyyətinə aşağıdakılar daxildir:

- mandat komissiyası yaradaraq Qurultay nümayəndələrinin səlahiyyətini yoxlayıb təsdiq edir.
- Milli Şuranın nizamnamə və rəmzlərini qəbul edir, onlara dəyişiklik və əlavələr edir;
- Milli Şuranın fəaliyyətinin əsas yönlərini müəyyənləşdirir;
- Milli Şuraya 7 nəfərlik başqanlıq şurası seçir,
- Milli Şuraya 10 nəfərlik icra orqanı seçir,
- Milli Şuranın fəaliyyətinin dayandırılması və buraxılması haqqında qərar qəbul edir.

Qurultayda seçilən orqanların bir biri ilə əlaqə sistemi aşağıdakı cədvəldə göstərilmişdir.

***GÜNEY AZƏRBAYCAN MİLLİ BİRLİK ŞURASI TƏŞKİLAT ÇARTI***

> İki ildən bir keçirilən qurultay daxildəki xanlıqlar (vilayətlər) və xaricdəki bölgələrdən seçilərək 220 nümayəndə ilə baş tutar

| İcra Orqanı 10 nəfər | Başqanlıq Şurası 7 nəfər | ( Ali Məclis) |
|---|---|---|
| 1. İnsan haqları komitəsi<br>2. Mali işlər üzrə komitə<br>3. Ümumi əlaqələr komitəsi<br>4. Mətbuat və nəşriyyat komitəsi<br>5. Qadınlar komitəsi<br>6. Təşkilat komitəsi<br>7. Təbliğat və informasiya komitəsi<br>8. Tədarükat komitəsi<br>9. Gənclik komitəsi | 1. Qərarlar özəl bir qural yoxsa adi çoxluqla alınır.<br>2. Milli şuranın huquqi şəxsiyyətini təmsil edər.<br>3. Toplantıları:<br>1. Olağan (3 ayda bir)<br>2. Olağanüstü (üzvlərin oy çoxluğu qərarıyla)<br>4. Mali, tədarükat və gənçlik,məslək bir olmaq şərti ilə hər üzvü bir icra komitəsiylə | Zamani gəlincə Güney Azərbaycanın tarixi torpaqlarındakı əyalət və vilayətlərdən seçiləcəkdir. |

MilliŞura

| | | |
|---|---|---|
| 10. Məslək və sinif komitəsi:<br>a- İşçi bölməsi<br>b- Müəllimlər bölməsi<br>c- Tələbələr bölməsi<br>d- Kənd təsərrüfatı bölməsi | ilişki üçün təyin edilir.<br>5. Öz arasından 6 aylıq müddət üçün təşkilatın sözcüsü seçilir.<br>6. Öz içindən 3 nəfər siyasi komision seçir.<br>8. öz arasından bir nəfər mali kontrolçu seçər.<br>9. Öz içindən 3 nəfər nəşriyyat və mətbuat məsulu seçir. | |

## 2.2 Qurultayda seçilənlərin görəv və səlahiyyətləri

### 2.2.1 Başqanlıq Şurası

Baş komitənin üzvlərindən hər biri bir icra komitəsi ilə ilişgi məsulu olaraq təyin edilir. O komitənin verdiyi məlumat, təklif və icraatı baş komitənin aylıq iclasında təqdim edər. Hərəkatın gedişatına görə üzvlərin təklifləri, milli məclisdən gələn təkliflər və ya icra komitələrindən gələn istəkləri incələr, uyğun gördüklərini əlaqədar komitəyə yazılı şəkildə bildirər. Baş komitə eyni halda aşağıdakı görəvləri yerinə yetirər:

Təşkilatın ümumi yönətimini əsasnaməyə uyğun olaraq həyata keçirir.
Xarici ölkə və təşkilatlarla ilişgi qurar.
Öz içindən təşkilata altı aylıq müddətinə sözçü seçər.

Mətbuat konfransları təşkil edər.
Üzvlüyə qəbul edilən şəxs və təşkilatların son durumunu incələr və son qərar verər.
Mali yardım qaynaqları axtarıb təmin edər.
Bəyaniyyələr hazırlayıb, təbliğat komitəsi vasitəsi ilə yayar.
Radio, televiziya, E-qrupu, sitə və nəşriyyata ali nəzarət edər.
Qurultaya çağırar, açar, hesabat verər, istefaya gedər.
Milli Şuranın 3 nəfərdən ibarət siyası komisionunu "başqanlıq Şurası" öz içindən seçər. Bu siyasi komisionun işi siyasi durumları araştırmaq və ona görə Milli Şuranın münasibətini bildirməkdir.

### 2.2.2 İcra orqanı

- Təbliğat və informasiya komitəsi milli hərəkat və onun xaricindəki məlumatları toplar. Təşkilatın təbliğat işləri o cümlədən email qrupları, sitələr vərəqə və şüarlar hazırlar.
- Nəşriyyat komitəsi radio, televiziya, qəzet, kitab və başqa nəşriyyat yayar.
- Təşkilat komitəsi təşkilatın cədvəlinə münasib olaraq təşkilatı məsələləri həll edər. Qəbul olunan üzvlərə üzvlük kartı buraxarlar. Uyğun statistik metodlarla təşkilat üzvlərini keyfiyyət və kəmiyyət cəhətindən yoxlar.
- Mali komitə üzvlük haqlarını toplayar, mali qaynaq və xərclərin hesabatını saxlayar və baş komitəyə məruzə edər.

Milli Şura

- Tədarükat və təşrifat komitəsi bütün iclas, tədbir, təzahurat və toplantıların qurulmasını öhdəsinə alar. Bütün təşrifatlarda müdiriyyət edər, plakatlar hazırlar, şəkillər və başqa ehtiyacları təmin edər.
- İnsan haqları komitəsi bütün zaman və məkan daxilində insan haqları pozulan azərbaycanlıların hüquqlarını müdafiə edər.
- Ümumi əlaqələr komitəsi ümumi xalqdan və başqa qaynaqlardan gələn müraciətləri qəbul edər. İlgili orqanlara təqdim edər. Üzvlük diləkçələrin qəbul edərək ilgili orqanlara təqdim edər.
- Qadın komitəsi qadınların təşkilat içində və xaricindəki məsələlərlə ilgilənər.
- Gənclik komitəsi gənclərin təşkilatın daxil və xaricindəki məsələləri ilə ilgilənər.

Məslək və sinif komitəsi:

- İşçi bölməsi işçilərin təşkilatın daxil və xaricindəki məsələləri ilə ilgilənər.
- Müəllimlər bölməsi öyrətmənlərin təşkilatın daxil və xaricindəki məsələləri ilə məşqul olur.
- Tələbə bölməsi öğrənçilərin durumu ilə uğraşır.
- Kənd təsərrüfati bölməsi əkinçilərin vəziyyəti ilə məşgul olur.

## 2.3 Milli şuranın Güney Azərbaycan inzibati ərazisində təşkilat sistemi

Bu sistem nisbi olaraq xaricdə də uygulana bilər

### 2.3.1 Əyalətlər

Bütün əyalətlərdə Milli Şuranın başqanlıq divanının bir nümayəndəsi işlərin gedişatını kontrol edər. Bu nümayəndə təşkilat arası koordinatorluğu yerinə yetirər. Bütün əyalətlərdə icra komitələri fəaliyyət göstərir.

### 2.3.2 Vilayətlər

Bütün vilayətlərdə icra komitələri fəaliyyət göstərir.

### 2.3.3 Bölgələr

Bütün bölgələrdə ancaq təbliğat, təşkilat və ümumi əlaqələr komitəsi fəaliyyət göstərir.

### 2.3.4 Bucaqlar

Bütün bucaqlarda ancaq dayaq nöqtələri fəaliyyət göstərir.

MilliŞura

***Ali Məclis: Zamani gəlincə Güney Azərbaycanın tarixi torpaqlarındakı əyalət və vilayətlərdən seçiləcəkdi***

Yuxarıda qeyd edilən Ali Məclis indiki şəraitdə könüllülərin bir araya toplaşıb öz aralarında seçgisi ilə məhdudlaşar. Ancaq bu məclis gələcəkdə və özəlliklə ani imkanlar yarananda vaxt itirmədən öz işinə başlayar. Milli Şuranın üzv sayısından asılı olmayaraq, bütün inzibati ərazilərdə yaşıyan hər 100 min nəfərə bir numayəndə nəzərdə tutulur. Bucaqlarda bu say təmin edilməzsə, mənsub olduğu bölgə ilə, bölgələrdə təmin edilməzsə, mənsub olduğu vilayət ilə biləşərək seçgilərə gedilir.

## 2.4 Milli Şuranın təşkilat sistemindəki organlarının vəzifələri

Milli Şura organlarının inzibati ərazi sistemində vəzifəsi Milli Şuranın fikirlərini Əyalətlər, Vilayətlər, Bölgələr və Bucaqlarda olan ictimai-siyasi və iqtisadi şəraitə uyğun olaraq təbliğ etmək və inkişaf etdirməkdən ibarətdir.
Əyalət şöbəsi öz fəaliyyətlərinə uyğun bir nizamnamə hazırlaya bilər. Bu nizamnamə Milli Şuranın qurultayında qəbul olunmalıdır. Həmin nizamnamədə qeyd olunan fikirlər və amaclar Milli Şuranın nizamnaməsindəki fikirlər ilə zidiyyətdə olmamalıdır.
Milli Şuranın şöbələrinin əsas vəzifəsi Milli Şuranın məramnaməsində göstərilən nəzərlərini və ideyalarını təbliğ etmək və onları irəli aparmaqdan ibarətdir.
Bu vəzifələr vilayət və əyalətlərdə mövcud ictimai-iqtisadi və siyasi şəraitə uyğun olmalıdır.
Milli Şuranın şöbələrinin bir vəzifəsi həmin nəzərləri və ideyaları müxtəlif üsullarla (seminarlar, klaslar) yeni üyələrə çatdırmaqdan ibarətdir.
Bucaqların daxilində gənclər və qadınlar üçün ayrıca qruplar təşkil oluna bilər.
Birdən çox dilin istifadə olunduğu bölgələrdə Milli Şuranın ictimaiyyətlə əlaqələrində istisnalar qoyula bilər.

## 2.5 Milli Şurada üzvlük

Məramnamədə də qismən anladıldığı kimi, birlik üçün yaranmış Milli Şuraya üzvlük, azərbaycanlıların dini, irqi və siyasi düşüncə fərqliliklərindən asılı deyildir. Ancaq Azərbaycan probləminin həllini hər fikirdən öncə və öndə qəbul etmək şərtdir. Dürüstlük, hüsni şöhrət və milli düşüncə təqdirə layiqdir. Azərbaycan milli hərəkətinin tanınmış şəxsiyyətləri doğrudan müraciət edərlər, tanınmamış vətəndaşlar isə iki nəfər hərəkatçının tanıtması ilə qeydə alınır.

Milli şurada uzv olmaq istəyən təşkilatlar, idarə heyətlərinin qərari əsasında şuraya müraciət edər. Beləliklə o təşkilatın üzvləri bağlı olduqları təşkilatın kimliklərini təsdiq edəcək vərəqə ilə şuranın təşkilat komitəsinə başvurma haqqı qazanar. Bu şəxslər, şurada üzv olduqdan sonra əsas üzvlərin sahib olduğu bütün haqlara yiyələnərək müxtəlif qollarda fəaliyyət göstərirlər, qurultaylarda iştirak edərlər.
Məşvərət komisyonu :

Millişura

Bu danışma komisyonu, milli şuranın başqanlıq divani, icra komitələrin başçıları və üzv olan təşkilatların başqanlarından ibarət bir qurumdur. Önəmli ümum mili məsələrdə, gözlənilmiyən hadisələrin ortaya çıxmasında toplanıb məşvərətləşirlər. Bu komisyonun toplantıları;

a- Milli şuranın idarə organlarında təmsil olunmamış təşkilat başqanlarının 3/2 səs çoxluğu

b- Milli şuranın idarə oragnalrının ( başqanlıq şurasi və icra komitələri) qərari əsasında baş tutar.

### 2.5.1 Üzvlük mexanizmi

Üzv olmaq istəyən Güney azərbaycanlılar öz haqqında məlumat ilə birgə iki şəkillə ərizəsini ümumi əlaqələr komitəsinə təqdim edər. Bu komitə ilk araşdırmalardan sonra hər ay toplanmış ərizələri təşkilat komitəsinə təqdim edər. Təşkilat komitəsi ilə təbliğat və informasiya komitəsinin müştərəkən yaratdıqları bir komissiya qarşıya qoyulmuş məsələni araşdırar. Qəbul olunan üzvlər təşkilat komitəsində sənədləşərək qeydə alınar. Bu sənədlərin başqanlıq divanında təyidindən sonra təşkilat komitəsi üzvlük kartı hazırlayıb üzvə təqdim edər.

### 2.5.2 Milli Şura üzvünün hüquqları

- Milli Şuranın bütün orqanlarına seçmək və seçilmək;
- Milli Şuranın fəaliyyəti ilə bağlı təkliflər vermək və layihələr hazırlamaq;
- Müzakirələrdə çıxış etmək və öz tənqidi fikirlərini açıq şəkildə bildirmək;
- Milli Şuranın orqanlarına müraciət, şikayət etmək və cavab tələb etmək;
- Üzvlüyünü dayandırmaq və ya təşkilatdan çıxmaq;
- Milli Şuranın keçirdiyi tədbirlərdə iştirak etmək.

### 2.5.3 Milli Şura üzvünün vəzifələri

- Milli Şuranın əsasnaməsinə əməl etmək, təşkilatın qərarlarını yerinə yetirmək;
- Təşkilata ziyan vuran, onun adına ləkə gətirən və siyasi xətt ilə bir araya sığmayan hərəkətlərə yol verməmək;
- Təşkilat üzvlərinin hüququnu pozan hərəkətlərə yol verməmək və hər kəsin haqqına sayğı ilə yanaşmaq;
- Təşkilatın fəaliyyətinə hər vasitə ilə yardım etmək;
- Üzvlük haqqı vermək.

### 2.5.4 Milli Şura üzvluyundən xaric olunma qaydaları

- Hər hansı bir üyənin (fərd və ya dayaq) fəaliyyəti Milli Şuranın fəaliyyətinə zidd olarsa, o zaman həmin fərdin və ya şöbənin üyəliyi ləğv oluna bilər. Şöbələrin üyəliyinin ləğv olunmasına əyalətlərin qurultayında qərar verilə bilər.

- Hər hansı bir üzvün Milli Şuradan xaric olunmasına o üyədən bir yuxarı orqan qərar verə bilər.

Milli Şura

- Belə hallarda üyənin olduğu şöbənin başqanı bir yuxarı orqana  həmin üyənin xaric olunması üçün müraciət etməlidir.
- Əgər hər hansı bir üyə Milli Şuranın fəaliyyətinə zidd olan və ya mane olacaq işlər görərsə, onda aşağıdakı ardıcıllıqla Milli Şuranın üyəliyindən xaric oluna bilər:
- Yazılı  xəbərdarlıq;
- Üyəliyin dondurulması;
- Milli Şuranın üzvlüyündən xaric olunma.
- Hər hansı bir üyənin Milli Şuradan xaric olunması haqqında qərar həmin üyəyə müvafiq şöbənin başqanı tərəfindən yazılı şəkildə bildirilməlidir.
- MŞ-dan xaric olunan üyənin rəsmi olaraq xaric olunacağı yığıncaqda özünü müdafiə etmək hüququ vardır.
- MŞ-dan xaric olunmuş üyə Milli Şuranın və onun orqanlarının proqramlarında iştirak edə bilməz.

## 2.6 Milli Şura təşkilatında işçilərin fəaliyyət şəraiti

- Güney Azərbaycan şəraitindəki toplumda işçiləri bir araya gətirmək, onları bilgiləndirmək və onların ictimai-siyasi və mədəni fəaliyyətlərini inkişaf etdirmək vasitəsilə həyata keçirilir.
- İşçilərin qurultayda iştirak etməsi üçün Milli Şura gərəkli şəraiti hazırlamalıdır. Bu şəraiti hazırlamaq üçün istisnalara yol verilməsi mümkündür.
- İşci təşkilatının hazırladığı nizamnamə Milli Şuranın qurultayında qəbul olunmalıdır.
- İşci təşklilatı yerli səviyyədən ölkə səviyyəsinə qədər həlqələrdən ibarət ola bilər.

## 2.7 Milli Şura təşkilatında gənclərin fəaliyyət şəraiti

- Bu iş şəraiti, gənclərin siyasi-demokratik düşüncələrini inkişaf etdirmək üçün onların təşkilatlanmasına kömək etmək, özəlliklə təhsil mərkəzlərində gənclərin təşkilatlarına lazımi dəstəyi göstərmak vasitəsilə həyata keçirilir.
- Gənclər komitəsinin hazırladığı nizamnamə Milli Şuranın qurultayında qəbul olunmalıdır.
- Gənclərlə əlaqədar işlərin həyata keçirilməsi üçün Milli Şura tərəfindən maliyyə yardımının göstərilməsi nəzərdə tutulur.
- Gənclərin qurultayda iştirak etməsi üçün Milli Şura gərəkli şəraiti hazırlamalıdır. Bu şəraiti hazırlamaq üçün istisnalara yol verilə bilər.
- Gənclər komitəsi yerli səviyyədən ölkə səviyyəsinə qədər həlqələrdən ibarət ola bilər.

## 2.8 Milli Şura təşkilatında qadınların iş şəraiti

- Bu iş şəraiti, kişilərin sözünün qanun olduğu və qadınların hökmünün az olduğu bir toplumda qadınları bir araya gətirmək, onları bilgiləndirmək, onların ictimai-siyasi və mədəni fəaliyyətlərini inkişaf etdirmək vasitəsilə həyata keçirilir.
- Qadınların qurultayda iştirak etməsi üçün MŞ gərəkli şəraiti hazırlamalıdır. Bu şəraiti hazırlamaq üçün istisnalara yol verilməsi mümkündür.

Millişura

- Qadınlar komitəsinin hazırladığı nizamnamə Milli Şuranın qurultayında qəbul olunmalıdır.
- Qadınlar komitəsi yerli səviyyədən ölkə səviyyəsinə qədər həlqələrdən ibarət ola bilər.

## 2.9 Milli Şuranın əmlakı və maliyyə vəsaiti

### 2.9.1 Milli Şuranın əlamətləri

Milli Şuranın özünün bayrağı, möhürü, rəmzi , müstəqil balansı və s. olan milli təşkilatdır.

### 2.9.2 Milli Şuranın əmlakı

Milli Şuranın mülkiyyətini öz vəsaiti hesabına əldə etdiyi və ya ona bağışlanan əmlak-dəftərxana ləvazimatı, texniki avadanlıq, ofis, inventar, binalar, mənzillər, pul, qiymətli kağız və s. təşkil edir.

### 2.9.3 Milli Şuranın gəlir qaynaqları

Milli Şuranın əmlakının və maliyyə vəsaitinin qaynaqları aşağıdakılardır;

- üyəlik haqqı;
- müxtəlif fiziki və hüquqi şəxslərin ianələri və hədiyyələri;
- təşkilat strukturlarının-məhsul, iş və xidmətlərinin – mühazirələr, sərgilər, tamaşalar, konsertlər, idman tədbirləri və s. gerçəkləşdirilməsində və digər əməliyyatlardan əldə edilən gəlirlər;
- əvəzsiz ödəmələr və s.

### 2.9.4 Milli Şuranın xərc yerləri

Gəliri əsasnamədə nəzərdə tutulmuş məqsəd və vəzifələrin həyata keçirməsinə xərclənir.

### 2.9.5 Milli Şuranın hesbatı

Maliyyə vəsaitinin xərclənməsi ilə bağlı yuxarı orqanlar qarşında hesabat verilir.

2007-01-18

Millişura